# AZƏRBAYCAN RESPUBLİKASININ
# EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ

## Ə M R

**№ 228/ü**

**Bakı şəhəri** **«18» may 2009-cu il**

**Metodikaların təsdiq edilməsi barədə**

Ətraf mühitə, o cümlədən su obyektlərinə və atmosfer havasına zərər vura bilən müəssisələrə ətraf mühitə təsir göstəricilərinə dair verilən müvafiq normativ sənədlərin tərtibi mexanizminin mövcud qanunvericiliyin müddəalarına uyğun olaraq təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə»nin 10.76-cı bəndinə əsaslanaraq

ƏMR EDİRƏM:

1. «Müəssisələr üçün atmosferə atıla bilən tullantı həddinin (ABTH) tərtib olunmasına dair Metodika» və «Tullantı suları ilə su obyektlərinə axıdılan zərərli maddələrin buraxıla bilən axıntı həddinin (BBAH) tərtib olunmasına dair Metodika» təsdiq edilsin (əlavə olunur).

2. Maliyyə və Təsərrüfat Şöbəsinə və Ekoloji Elmi-Texniki İnformasiya və Metodologiya Mərkəzinə (Ekomərkəz) tapşırılsın ki, bu Əmrin 1-ci bəndi ilə təsdiq edilən Metodikaların qanunvericiliklə muəyyən olunmuş qaydada mətbəə üsulu ilə kitabça şəklində çap edilməsini və Nazirliyin aidiyyəti üzrə struktur bölmələrinə paylanılmasını təmin etsinlər.

3. Nazirliyin şöbə, departament və digər aidiyyəti qurumlarına tapşırılsın ki, bu Əmrdən irəli gələn məsələlərin həllini təmin etsinlər.

4. Ümumi Şöbəyə (A.Ələkbərova) tapşırılsın ki, bu Əmrin surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarət Nazir müavini N.Quliyevə həvalə olunsun.

**Nazir** **H.Bağırov**